*“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 1 avqust 2015-ci il | № 58 (1974) | Qiyməti 25 qəpik


## Ali Baş Komandan İlham ƏLİYEV:

# “Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir”

***Azərbaycan Prezidenti İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycan dövlətinin prinsipial mövqeyini dəfələrlə yüksək tribunalardan səsləndirib və bu prinsiplərin dəyişməz olduğunu bəyan edib. Bu yaxınlarda dövlətimizin başçısı regionumuza səfəri çərçivəsində Bakıya gəlmiş Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskla görüşü zamanı bir daha ölkəmiz üçün önəmli olan məsələdə Azərbaycanın mövqeyini bəyan etdi.***



Prezident İlham Əliyev rəsmi qonaqla birgə mətbuat konfransında Avropa İttifaqı ilə Azərbaycan arasında böyük önəm daşıyan iqtisadi, siyasi əlaqələr, mədəni və humanitar sahələrdə əməkdaşlıq məsələlərinin müzakirə edildiyini kütləvi informasiya vasitələrinin nümayəndələrinə açıqladı. O, həmçinin regional təhlükəsizlik məsələsi, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və bu münaqişənin necə həll olunması yolları barədə səsləndirdiyi fikirlərdə Azərbaycan Respublikasının rəsmi mövqeyini bir daha ortaya qoydu.

Münaqişənin iki onillikdən çoxdur ki, davam etdiyini bildirən dövlət başçısı bir daha vurğuladı: "Azərbaycanın beynəlxalq səviyyədə tanınan hissəsi - Dağlıq Qarabağ və 7 digər rayonumuz 20 ildən artıqdır ki, Ermənistanın işğalı altındadır. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal olunmuş ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxmasını tələb edən 4 qətnamə qəbul edib. Lakin onlar icra olunmur. Ermənistan Dağlıq Qarabağı və 7 ətraf rayonu işğal edib, bir milyon azərbaycanlı bu təcavüzün qurbanına çevrilib və onlar məcburi köçkün və qaçqın vəziyyətinə düşüblər. İnsanlarımız Ermənistan tərəfindən etnik təmizləmə siyasətinə məruz qalıblar. Beynəlxalq hüquq normaları və BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında münaqişənin tezliklə həll edilməsi Cənubi Qafqaz regionunun bütün xalqları üçün faydalı olardı. Biz ümid edirik ki, beynəlxalq ictimaiyyət Azərbaycan torpaqlarından çıxması üçün təcavüzkara daha çox təzyiq göstərəcək və işğal olunmuş ərazilər azad edilən kimi Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə başlanıla bilər. Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir və münaqişə də bu zəmin üzərində öz həllini tapmalıdır".

Ölkəmizin xarici və daxili aspektlərdə əldə etdiyi nailiyyətləri vurğulayan dövlət başçısı Dağlıq Qarabağ probleminin həllinin ləngiməsindən narahatlığını bir daha büruzə verdi. Doğrudan da, ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən də aydın şəkildə dəstəklənən və BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrində təsbit olunmuş Azərbaycanın məlum tələbinin yerinə yetirilməsi ilə regionda təhlükəsizlik, sərhəd və kommunikasiyaların açılması və etimad quruculuğu tədbirləri üzrə məsələlərin razılaşdırılması üçün geniş imkanlar yaradardı.

Jurnalistlərin sualını cavablandıran Azərbaycan Prezidenti bir daha bəyan etdi ki, hazırda münaqişənin sülh vasitəsilə nizamlanması üzərində iş getsə də, münaqişənin kökləri, onun nə üçün yaranması səbəbləri unudulmamalıdır. Bu münaqişənin ilk qurbanlarının azərbaycanlılar olduğunu, təcavüzün etnik təmizləmə, Xocalıdakı soyqırımı və ərazilərimizin 20 faizinin işğalı ilə nəticələndiyini vurğulayan Prezident bildirdi ki, bu işğala heç bir bəraət qazandırmaq olmaz. Çünki bu, çox aydındır və xəritəyə baxmaq kifayət edər ki, Azərbaycanın böyük bir hissəsinin Ermənistanın işğalı altında olmasını görsünlər. Onlar bütün azərbaycanlıları oradan qovublar, onların insan hüquqlarını pozublar, bütün tarixi və dini abidələrimizi dağıdıblar. Bu barədə ATƏT-in regiona iki missiyasının hesabatında qeyd olunub.

Dövlətimizin daha da tərəqqi etməsi, xalqımızın rifah halının yaxşılaşması, şəhər və kəndlərimizin abadlaşması hər birimizin arzusudur və ölkə rəhbərliyinin fəaliyyətilə gerçəkləşir. Bununla belə ən böyük istəyimiz ilk növbədə Vətənimizin ayrılmaz parçası olan Dağlıq Qarabağın işğaldan azad edilməsidir. Azərbaycanın Silahlı Qüvvələri dövlətimizin təhlükəsizliyinin qarantı olmaqla yanaşı, Ermənistanın zəbt etdiyi ərazilərimizin azad edilməsi üçün əsas amildir. Bu səbəbdən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev dövlətin etibarlı müdafiəsi və düşmən tapdağı altında olan Vətən torpaqlarının azad edilməsi baxımdan həmişə ordu quruculuğuna böyük önəm verib.

Doğrudan da, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun imzaladığı döyüş hazırlığı planına əsasən, ordumuzun bölmələri həm düşmənlə təmas şəraitində gecə-gündüz demədən Azərbaycan torpaqlarının keşiyində ayıq-sayıq dayanır, həm də gündəlik döyüş məşğələlərində hazırlığını artırır. İl ərzində keçirilən müxtəlif səviyyəli təlimlərdə Quru Qoşunları, Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələrinə məxsus bölmələr nəyə qadir olduqlarını təlim meydanlarında ortaya qoyurlar.

Eyni zamanda Ermənistan ordusunun bölmələri qoşunların təmas xəttində tez-tez döyüşçülərimizi təxribata çəkir, mövqelərimizə mütəmadi hücumlar təşkil edirlər. Bu günlərdə təmas xəttində ayıq-sayıq döyüş növbəsi aparan bölmələrimiz kəşfiyyat məqsədilə buraxılmış düşmənin daha bir pilotsuz uçan aparatını məhv ediblər. Bu fakt bir daha göstərir ki, düşmənin belə təxribatlarının qarşısı Silahlı Qüvvələrimizin bölmələri tərəfindən qətiyyətlə alınır. Əslində Azərbaycanın qüdrətli Silahlı Qüvvələrə malik olması həm də Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlar prosesində ölkəmizin tutarlı arqumentidir.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

## Misir mətbuatı Avropa İttifaqı Şurasının prezidentinin Azərbaycana səfərini işıqlandırıb

***Misirin Yaxın Şərq Xəbərlər Agentliyi və "Əl-Yaum Əs-Sabi" internet qəzeti Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun Azərbaycana rəsmi səfəri ilə bağlı məqalə yayıb.***

Azərbaycanın Misirdəki səfirliyinin dəstəyi ilə yayılmış məqalədə əsas diqqət dövlətimizin başçısı İlham Əliyevin və Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun keçirdikləri birgə mətbuat konfransına yetirilir.

Məqalədə Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini Avropa İttifaqının dəstəklədiyi, ona üzv ölkələrin "Dağlıq Qarabağ respublikası"nı tanımadığı, status-kvonun qəbuledilməz olduğu, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasının Avropa İttifaqı üçün prioritet olaraq qaldığı, ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçilik səylərinin təşkilat tərəfindən dəstəklənməsinin davam etdiyi ilə bağlı D.Tuskun fikirləri oxucuların diqqətinə çatdırılır.

## Xarici İşlər Nazirliyi ABŞ Dövlət Departamentinin Azərbaycanla bağlı açıqlamasına münasibət bildirib

***ABŞ Dövlət Departamentinin regionda baş verən bir sıra narahatlıq doğuran halları, o cümlədən dinc nümayişçilərin qəddarcasına döyülməsi və həbsləri kimi kobud insan hüquqları pozuntularını görməzliyə vuraraq konkret cinayət tərkibi daşıyan hər bir halı siyasiləşdirməklə Azərbaycanın daxili işlərinə qarışmaq məqsədi güdən "dərin narahatlığı" ikili standartların növbəti bariz nümunəsidir.***

AZƏRTAC xəbər verir ki, bu fikri Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev ABŞ Dövlət Departamentinin Azərbaycan ilə bağlı açıqlamasını şərh edərkən bildirib.

H.Hacıyev deyib ki, demokratik dövlət olan Azərbaycanda qanunun aliliyi tam şəkildə təmin edilib və heç kim siyasi fəaliyyətinə və baxışlarına görə təqib olunmur. Məhkəmənin qərarı olmadan hər hansı cinayət tərkibli hala münasibətdə bu cür qərəzli mülahizələr onun işinə yersiz və uğursuz müdaxilədən başqa bir şey deyil.

Qəribədir ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində fundamental hüquqlarından məhrum olmuş bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqlarının kütləvi şəkildə pozulması ABŞ Dövlət Departamentinin "dərin narahatlığı" sırasında heç vaxt yer almır.

Mətbuat katibi qeyd edib ki, ABŞ-ın İnsan Hüquqları üzrə Universal Bəyannamədən irəli gələn və beynəlxalq təşkilatlar, o cümlədən ATƏT çərçivəsində üzərinə götürdüyü öhdəliklərə məhəl qoymayaraq bütün ölkəni bürümüş polis zorakılığı və sistematik irqi ayrı-seçkilik halları, Quantanamo həbsxanasındakı mühakiməsiz uzunmüddətli həbs və işgəncələr, ölkə daxilində və hətta ən yaxın müttəfiqlərinə qarşı qlobal səviyyədə aparılan gizli dinləmə əməliyyatları, digər ölkələrin suverenliyini pozaraq pilotsuz uçan aparatları ilə həyata keçirilən mühakiməsiz qətllər və digər bu qəbildən olan çoxsaylı problemlərin fonunda özünü insan hüquqlarının "qlobal himayədarı" kimi qələmə verməsi yalnız və yalnız istehza doğurur.

## Azərbaycanın Hərbi Dəniz Qüvvələrinin gəmiləri "Xəzər Kuboku-2015" Ordu Oyunlarında iştirak etmək üçün Rusiyaya çatıblar

***Azərbaycan Hərbi Dəniz Qüvvələrinin (HDQ) gəmiləri "Xəzər Kuboku-2015" Beynəlxalq ordu oyunlarında iştirak etmək üçün Rusiyaya səfər edib. Kubok yarışları avqustun 3-dən 15-dək Xəzər dənizinin xüsusi təchiz olunmuş akvatoriyasında keçiriləcək.***

AZƏRTAC "RİA Novosti"yə istinadən xəbər verir ki, HDQ-nin 205 layihəli iki patrul-mühafizə kateri və dəniz buksiri artıq Mahaçqala limanına daxil olub.

Qarşılanma mərasimindən sonra Xəzəryanı üç ölkədən - Azərbaycan, Rusiya və Qazaxıstandan olan yarış iştirakçıları "Dağıstan" dəniz poliqonuna şturman yürüşünü başa çatdırıblar. Rusiya dənizçiləri həmkarlarına marşrutları və atışlarla bağlı tapşırıqların yerinə yetirilməsini nümayiş etdiriblər.

Müsabiqə avqustun 3-dən 15-dək Xəzər dənizinin xüsusi təchiz olunmuş, ümumi sahəsi 170 mil (300 kilometr) olan poliqonunda keçiriləcək.

## Fransalı deputat ilk Avropa Oyunları ərəfəsində Azərbaycanın üzləşdiyi qarayaxma kampaniyasını kəskin tənqid edib

***Fransa Milli Assambleyasının deputatı, Fransa-Azərbaycan Dostluq Qrupunun vitse-prezidenti, xarici əlaqələr komitəsinin üzvü və Altkirş şəhərinin meri Jan-Lük Raytzerin "Le Trombinoscope" jurnalında "Avropa Oyunları Bakıda: Fransa tərəfi niyə bu qədər dözümsüzdür?" adlı məqaləsi dərc olunub. Bu barədə Avropa Azərbaycan Cəmiyyətindən AZƏRTAC-a bildirilib.***

Müəllif yazır: "Mən ötən illər ərzində dəfələrlə Azərbaycanda, Bakıda olmuşam. Sonuncu dəfə isə orada iyunun 12-də qitəmizdə ilk dəfə keçirilən Avropa Oyunlarının açılış mərasimi zamanı olmuşam. Nümayəndə heyətimizin qarşılanması zamanı göstərilən qonaqpərvərlik və nümunəvi xidmət, Bakının və onun arxitekturasının transformasiyası, onu "İşıqlar şəhəri"nə çevirən işıqların orijinallığı və gözəlliyi məni heyrətləndirdi. Lakin bunlardan da çox mənə Azərbaycan xalqının entuziazmı və şövqü böyük təəssürat bağışladı.

Açılış mərasimi möhtəşəm və təsirli idi, burada ölkənin tarixi və müasirliyi ustalıqla birləşdirilmişdi.

Lakin paralel olaraq böyük fransız mediasının I Avropa Oyunlarının işıqlandırılmasında göstərdiyi dözümsüzlük məni çox məyus etdi, hətta hiddətləndirdi. Azərbaycanla bağlı bir çox çirkin məqalələr oxudum..."

Müəllif qeyd edir ki, biz Azərbaycanın 2001-ci ildən Avropa Şurasının, o cümlədən Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" Proqramının və ATƏT-in üzvü olması faktına etinasızlıq göstərməməliyik. Azərbaycana təzyiq kampaniyası, heç şübhəsiz, bütün regionun sabitlik qalası, hər kəsə dünyəvilik və dini tolerantlıq nümunəsi olan, əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən bu Cənubi Qafqaz ölkəsini cəsarətləndirmək üçün heç də yaxşı vasitə deyil. Bu ölkədə kişi və qadınlar təhsil almaqda bərabər hüquqlara malikdirlər. Minlərlə gənc azərbaycanlı təhsil almaq üçün xaricə, xüsusilə də Böyük Britaniyaya və Fransaya göndərilir.

Azərbaycan həyata keçirdiyi islahatları və öz nəhəng investisiyaları ilə yoxsulluq səviyyəsini ciddi şəkildə azaltmağa nail olub. Bu rəqəm hazırda 4,9 faizdə qərarlaşıb. Fransanın bəzi regionları bu nailiyyətə həsəd aparar.

Vurğulanır ki, Avropa Oyunları Ermənistandan İsrailə kimi onlarla ölkədən olan və 20 müxtəlif idman növü üzrə yarışan 6 min atleti bir araya gətirdi. Oyunlar xalqın qürur və birlik daşıyıcısı oldu. Avropa Oyunları özündən sonra hədsiz dərəcədə böyük pozitiv irs qoyacaq. Bu möhtəşəm tədbir Azərbaycanı minlərlə əcnəbiyə təqdim etdi, onlara Azərbaycanın əsl reallıqlarını görmək, buradakı qonaqpərvərlik və insanların istiqanlılığı ilə tanış olmaq imkanı yaratdı.

Azərbaycan Avropa Oyunları ilə bir çox maneələri dəf etdi. Ölkədə yalnız iki il yarım ərzində yüksək keyfiyyətli infrastruktur inşa edildi. Azərbaycan bir daha göstərdi ki, Rusiya, İran və Türkiyə kimi ölkələrlə əhatə olunmasına baxmayaraq o, əsas regional oyunçudur. Nəhayət, Azərbaycan ən yüksək səviyyədə beynəlxalq idman yarışlarını təşkil etmək bacarığını göstərdi.

Fransalı deputat məqaləni bu fikirlərlə bitirir: "Mənim arzum nədir? Arzum odur ki, fransız xalqı və mediası bu gözəl ölkəyə səyahət etmək üçün açılış mərasimi ruhundan yola çıxsın. Öz müstəqilliyini qorumaq, Avropa və xüsusən də Fransa ilə əlaqələrini möhkəmləndirmək istəyən şəxslər bu ölkə ilə bağlı təcrübə yaşayarkən və yaxud ən azı danışarkən öz obyektivliklərini və intellektual vicdanlarını ortaya qoysunlar".

# Əlahiddə Ümumqoşun Ordusunun çətin dağlıq şəraitində yerləşən hərbi hissələri yüksək döyüş qabiliyyətinə malikdirlər



***Ümummilli liderimiz Heydər Əliyev deyib: "Azərbaycan Respublikasının tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının coğrafi vəziyyəti bu diyarda ölkəmizin torpaqlarının, sərhədlərinin qorunması üçün xüsusi əhəmiyyət kəsb edir".***

Bu gün Əlahiddə Ümumqoşun Ordusunun dağ şəraitində və yüksəkliklərdə yerləşən hissə və bölmələrində nümunəvi xidmət şəraiti yaradılıb. Burada xidmət edən əsgərlər torpaqlarımızı etibarlı qoruyur. Güclü maddi-texniki təminat, yüksək xidmət şəraiti və xalq-ordu birliyi hərbi qulluqçuların döyüş əzmini daha da artırır. Bu sahədə həyata keçirilən tədbirlər Şahbuz rayonunun yüksək dağlıq şəraitində yerləşən hərbi hissələrini də əhatə edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iyulun 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Batabat bölgəsindəki hərbi hissələrdə xidmətin təşkili və şəxsi heyətin məişət şəraiti ilə maraqlanıb.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-leytenant Kərəm Mustafayev Ali Məclisin sədrinə raport verib.

Ali Məclisin sədri əsgərləri salamlayıb, Azərbaycan-Ermənistan sərhədində xidməti vəzifələrini uğurla yerinə yetirdiklərinə görə onlara təşəkkür edərək deyib: "Bu gün Azərbaycan Respublikasının Prezidenti ölkəmizdə ordu quruculuğuna xüsusi diqqət yetirir. Vaxtilə bu ərazilərdə əsgərlər çox ağır şəraitdə xidməti vəzifələrini icra edirdilər. Lakin ölkəmiz inkişaf etdikcə ordunun məişət şəraiti və silah-sursat təminatı da xeyli yaxşılaşdırıldı. Ucqar dağlıq ərazidə sizin üçün yaradılan xidməti şərait də ordu quruculuğu sahəsində görülən işlərin nəticəsidir".

Sosial-məişət problemlərinin həll olunması və hərbi hissələr üçün yaradılan şərait qarşıya bir vəzifə qoyur. O da xidməti vəzifələrini layiqincə yerinə yetirmək, vətən sərhədlərini və torpaqlarımızı etibarlı müdafiə etməkdən ibarətdir.

Ali Məclisin sədri bildirib ki, vətən torpağının qorunması, eyni zamanda, torpaqlardan səmərəli istifadə olunması bu gün ölkəmizin vətəndaşlarının və ordunun üzərinə düşən vəzifələrdir. Çünki sərhədlərimiz qorunursa, insanlar da öz vəzifələrini, işlərini rahat yerinə yetirə biləcəklər, öz zəhmətləri ilə ölkəmizin inkişafına töhfə verəcəklər. Əsgərlər xidməti vəzifələrini uğurla yerinə yetirdiklərinə görə bu ərazilərdən səmərəli istifadə olunur. Xidmət olunan ərazilərdə heyvandarlar və arıçılar üçün əlverişli şərait vardır. Onlar burada rahat və təhlükəsiz şəkildə təsərrüfatları ilə məşğul olurlar. Birgə fəaliyyətin nəticəsi olaraq isə ölkəmiz abadlaşır, inkişaf edir.

Ali Məclisin sədri şəxsi heyətin bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə, xidməti uğurla, qarşılıqlı hörmət və intizam əsasında başa vuracağına əminliyini bildirib.

Əsgər Aydın Salmanov deyib ki, hərbi hissədə vətənpərvər, dövlətinə, xalqına sədaqətli gənclər xidmət edir. Əsgərlər yüksək döyüş qabiliyyətinə və mənəvi-psixoloji hazırlığa malikdir. Şəxsi heyət istənilən döyüş tapşırığını uğurla yerinə yetirməyə qadirdir. Düşmənlə təmas xəttində xidmətin normal təşkili üçün yaradılan şərait əsgər və zabitlər tərəfindən razılıq hissi ilə qarşılanır. Onların məsuliyyətini daha da artırır. Eyni zamanda, bugünkü görüş əsgərləri qürurlandırır, onları vətənin keşiyində ayıq-sayıq dayanmağa sövq edir.



Sonra Ali Məclisin sədri əsgərlərin məişət şəraiti ilə maraqlanıb.

Bildirilib ki, hərbi hissədəki binada idman zalı, tibb otağı, məişət guşələri, təlim sinfi, silah, ideoloji və ayrı-ayrı xidməti otaqlar və 2 əsgər yataqxanası vardır. Təlim sinfində əsgərlərə taktiki, kəşfiyyat, mühəndis, atəş, rabitə və tibbi hazırlıq, eləcə də hərbi topoqrafiya üzrə təlimlərin nəzəri əsasları öyrədilir. İdeoloji otaqda isə əsgərlərin asudə vaxtının səmərəli keçirilməsi üçün lazımi şərait yaradılıb, ordumuzun keçdiyi tarixi inkişaf yolunu əks etdirən kitablar, stendlər, qəzet və jurnal materialları qoyulub. Binada taksofon quraşdırılıb. Əsgərlərin vaxtlı-vaxtında qidalanmasına xüsusi diqqət yetirilir. Bunun üçün anbarda kifayət qədər ərzaq ehtiyatı yaradılıb.



Baxış zamanı Ali Məclisin sədri şəxsi heyətin mövsümə uyğun qidalanmasına, onların tibbi müayinədən keçirilməsinə və şəxsi heyət arasında səhiyyə maarifi işinin aparılmasına dair tapşırıqlar verib.

Sonra Ali Məclisin sədri hərbi birləşmənin əhatə etdiyi postlarda olub, xidmətin təşkili ilə maraqlanıb.

Müşahidə məntəqəsində Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-leytenant Kərəm Mustafayev Ali Məclisin sədrinə mövqelərimizin vəziyyəti və taktiki şərait haqqında məlumat verib.

Qeyd olunub ki, bu gün sərhəddə etibarlı müdafiə sistemi qurulub, xidmət üçün zəruri olan şərait yaradılıb. Postlar ərazinin strateji əhəmiyyəti nəzərə alınaraq yerləşdirilib, lazımi yerlərdə müxtəlif mühəndis-istehkam qurğuları və maneələr yaradılıb, ön xəttin müdafiə qüdrəti xeyli gücləndirilib. Dayaq məntəqələri və postlar arasında yol və dayanıqlı rabitə əlaqələri yaradılıb, onların hər biri müasir döyüş texnikası, artilleriya qurğuları ilə və atıcı silahlarla təmin olunub. Müşahidə zonasının daimi nəzarətdə saxlanması təmin edilib. Müasir müşahidə cihazları vasitəsilə qarşı tərəfin mövqeləri istənilən hava şəraitində müşahidə olunur.

Maddi-texniki təminatla yanaşı, yüksək dağlıq şəraitində xidmət keçən şəxsi heyətin döyüş hazırlığına lazımi diqqət yetirilir. Təmas xətti boyunca etibarlı əməliyyat mövqeyinin təmin edilməsi, hərbi intizamın daim möhkəmləndirilməsi, şəxsi heyətin peşəkarlığının artırılması diqqətdə saxlanılır, əsgər və zabitlər xidməti vəzifələri şərəf və ləyaqətlə yerinə yetirirlər.

Ön xəttə yerləşən postlarda xidmət aparan əsgərlərlə görüşən Ali Məclisin sədri deyib: "Nizam-intizama ciddi riayət olunması və şəxsi heyət arasındakı qarşılıqlı hörmət hərbi xidmətin əsasını təşkil edir. Dəniz səviyyəsindən 3 min metr yüksəklikdə yerləşən bu hərbi hissələrdə xidmətin normal təşkili üçün hər cür şərait yaradılmışdır. Bu da xidmət apardığınız ərazilərə yaxın yaşayış məntəqələrində insanların rahat və təhlükəsiz yaşamasına imkan verir. Torpağı, Vətəni qorumaq müqəddəs vəzifədir". Ali Məclisin sədri bildirib ki, cəsur Azərbaycan əsgəri ön xətdə xidməti nümunəvi təşkil etməklə bu vəzifənin öhdəsindən layiqincə gəlir. Onlar istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdirlər. Bu da ölkəmizdə həyata keçirilən ordu quruculuğu siyasətinin daha bir ifadəsidir.

Ali Məclisin sədri xidməti vəzifələrini layiqincə yerinə yetirdiklərinə görə şəxsi heyətə təşəkkürünü bildirib.

Əsgərlərdən Hafiz Zeynallı, İbrahim Qocayev, Emin Məhərrəmli, Nurlan Xanbabalı və digərləri bu gün torpaqlarımızın etibarlı qorunduğunu bildiriblər.

Əsgərlərdə böyük ruh yüksəkliyi vardır. Buna səbəb müstəqil Azərbaycanın inkişafı, ordumuzun qüdrəti və ölkəmizdə xalq-ordu birliyinin möhkəm olmasıdır. Yüksək zirvələrdə, düşmənlə üz-üzə təmas xəttində mətin və ayıq-sayıq dayanan Azərbaycan əsgəri dövlətin qayğısını daim öz üzərində hiss edir. Bugünkü görüş də əsgərləri ruhlandırır, onların əzm və iradəsini artırır. Əsgərlər hərbi xidmətin nümunəvi təşkili üçün yaradılan şəraitə və göstərilən qayğıya görə minnətdarlıq ediblər.

Sonra Ali Məclisin sədri əsgərlərlə xatirə şəkli çəkdirib.

Gətirilmiş müxtəlif ərzaq məhsulları anbarlara təhvil verilib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycan Respublikasının Müdafiə naziri Moskva şəhərinə yola düşüb

İyulun 31-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Rusiya Federasiyasının paytaxtı Moskva şəhərinə səfərə gedib.

Müdafiə naziri avqustun 1-də beynəlxalq hərbi oyunların təntənəli açılış mərasimində iştirak edəcəkdir.

Səfər çərçivəsində general-polkovnik Zakir Həsənovun Rusiyanın Müdafiə naziri ordu generalı Sergey Şoyqu ilə görüşü də planlaşdırılır.

## Ermənistan Silahlı Qüvvələrinin növbəti pilotsuz uçan aparatı məhv edilib

***29 iyul 2015-ci il.***

Cəbhənin Ağdam rayonu istiqamətində Silahlı Qüvvələrimizin mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan Silahlı Qüvvələrinə məxsus 1 ədəd DJI Inspire1 (Quadcopter) pilotsuz uçan aparat (PUA) bölmələrimizin sayıqlığı nəticəsində vaxtında aşkar olunaraq atəş nəticəsində məhv edilib.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***31 iyul 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 91 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Barekamavan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Tapqaraqoyunlu, Tərtər rayonunun Çiləbürt, Yarımca, Göyarx, Qızıloba, Ağdam rayonunun Nəmirli, Novruzlu, Şirvanlı, Şuraabad, Sarıcalı, Cəvahirli, Yusifcanlı, Kəngərli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Qorqan, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

# Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində istehsal edilən məmulatların 85 faizi müdafiə və xüsusi təyinatlı olub

Müdafiə Sənayesi Nazirliyinin (MSN) tabeli müəssisələrində 2015-ci ilin birinci yarımilinin yekunlarına həsr edilmiş səyyar kollegiya iclası keçirilib.

MSN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Yavər Camalovun sədrliyi ilə keçirilən iclasda qurumun birlik və müəssisələrinin istehsal, maliyyə-təsərrüfat fəaliyyətlərinin yekunları və qarşıda duran məsələlər geniş müzakirə edilib.

Kollegiyanın sədri Y.Camalov bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində dövlət müstəqilliyimiz möhkəmlənib, demokratik, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesi daha da sürətlənib.

Nazir qeyd edib ki, ötən ay ölkəmizin birinci Avropa Oyunlarına yüksək səviyyədə ev sahibliyi etməsi böyük tarixi hadisə olub. Belə möhtəşəm tədbir hələ uzun müddət həm ölkə vətəndaşlarının, həm də avropalıların yaddaşında xoş xatirələrlə yaşayacaq. Avropa Oyunları deyəndə artıq ilk növbədə Azərbaycan yada düşəcək. Bu oyunların yüksək səviyyədə keçirilməsinə Prezident İlham Əliyevin siyasi iradəsi, qətiyyəti, gərgin əməyi və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın böyük təşkilatçılıq bacarığı sayəsində nail olunduğu xüsusi vurğulanıb.

Diqqətə çatdırılıb ki, Müdafiə Sənayesi Nazirliyi ilin ilk altı ayını uğurlu nəticələrlə başa vurub. Hesabat dövründə nazirliyin müəssisələrində 2015-ci il üçün nəzərdə tutulan tədbirlərin icrası davam etdirilib. Respublikanın güc strukturlarının sifarişləri əsasında bağlanmış müqavilələr üzrə müdafiə təyinatlı məmulatlar istehsal olunaraq sifarişçilərə təhvil verilib. Eləcə də mülki məmulat istehsalının genişləndirilməsi davam etdirilib.

Hesabat dövründə istehsal olunan məmulatların 85 faizini müdafiə və xüsusi təyinatlı, 15 faizini isə mülki məmulatlar təşkil edir. Mülki məhsulların istehsalı üzrə proqnoza 106 faiz əməl olunub. Cari ilin istehsal proqramına uyğun olaraq, birinci yarımillikdə nazirliyin müəssisələrində yaradılma üzrə 81 mövzunu və 143 mərhələni əhatə edən elmi-tədqiqat və təcrübi-konstruktor işləri davam etdirilib. Müdafiə təyinatlı məmulatların yaradılması sahəsində nazirliyin elmi müəssisələrinin potensialından istifadə etməklə bir sıra elmi-tədqiqat və təcrübi-konstruktor işləri uğurla həyata keçirilir. Bu sahədə respublikanın elm ocaqlarından Azərbaycan Milli Elmlər Akademiyası, Milli Aviasiya Akademiyası və digərləri ilə sıx əməkdaşlıq edilir.

Bildirilib ki, nazirliyin Elmi-Tədqiqat İnstitutunda cari ildə 20 mövzu, o cümlədən dövlət sifarişi xətti ilə 9 mövzu üzrə elmi-tədqiqat və təcrübi-konstruktor işləri davam etdirilir. Eləcə də Milli Aerokosmik Agentliyinin (MAKA) 2015-ci ildə elmi-tədqiqat işləri üzrə planında müdafiə təyinatlı məmulatların fəaliyyət prinsiplərinin işlənməsi, aerokosmik məlumatların emalının təkmilləşdirilməsi və ekoloji monitorinq məsələlərinin həllinə xüsusi yer verilib.

Vurğulanıb ki, Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yaradılan və istehsal edilən məmulatlar cari ilin mayında İstanbulda keçirilən "İDEF-2015" beynəlxalq müdafiə sənayesi sərgisində uğurla nümayiş olunub. İki ildən bir keçirilən "İDEF" sərgisində Müdafiə Sənayesi Nazirliyi artıq dördüncü dəfə iştirak edib. Bu sərgidə Müdafiə Sənayesi Nazirliyi 184 adda müdafiə təyinatlı məmulat nümayiş etdirib. Beynəlxalq sərgidə nümayiş olunan məmulatlar nazirliyin stendini ziyarət edən nümayəndə heyətləri tərəfindən böyük maraqla qarşılanıb.

"İDEF-2015" sərgisi çərçivəsində bir sıra ölkələrin qabaqcıl şirkətlərini təmsil edən nümayəndə heyətlərinin rəhbərləri ilə görüşlər keçirilib, mövcud və yeni əməkdaşlıqlara dair danışıqlar aparılıb. Sərgi zamanı 2016-cı ildə Azərbaycanda keçiriləcək "ADEX-2016" ikinci beynəlxalq müdafiə sənayesi sərgisi ilə bağlı məlumat verilib və dəvətlər çatdırılıb.

İclasda nazirliyin birlik və müəssisələrinin rəhbərlərinin hesabatları dinlənilib və müəssisələrin fəaliyyətləri müzakirə edilib.

Yavər Camalov hesabat dövründə tabeli birlik və müəssisələr tərəfindən görülmüş işləri müsbət qiymətləndirib.

Nazir Prezident İlham Əliyevin ölkənin müdafiə sənayesinin inkişafı ilə bağlı verdiyi tapşırıqların yerinə yetirilməsi istiqamətində struktur bölmə, birlik və müəssisə rəhbərlərinə göstərişlər verib.

# Hərbi marşın sədaları altında

***"N" hərbi hissəsi artilleriya qüvvələri sırasında önəmli yer tutur. Hərbi hissənin yaradılmasının 23-cü ildönümünə həsr olunmuş təntənəli mərasimdə arzu və istəklərini bir daha bəyan edən hərbi qulluqçular Vətən əmrinə hazır olduqlarını qətiyyətlə bildirdilər.***



Hərbi hissənin şəxsi heyəti yarandığı gündən Vətən uğrunda döyüşlərə atılmış, şanlı döyüş yolu keçmişdir. Artilleriyaçılar ata-babalarımızın qəhrəmanlıq yoluna, Vətən andına sadiq qalaraq qarşıya qoyulan döyüş tapşırıqlarını fədakarlıqla yerinə yetirir. Memarı və qurucusu xalqımızın ümummilli lideri Heydər Əliyev olan orduda xidmət etməkdən qürur duyan Vətən müdafiəçiləri döyüş hazırlıqlarını daim artırırlar. Xalqa sədaqətlə xidmət etməklə, işğal altında olan torpaqlarımızın xilaskarı olacaqlarını bildirirlər.

Öncə polkovnik-leytenant Əbil Əmirov şəxsi heyətin əlamətdar gün münasibətilə düzülüşü barədə general-mayor Zahid Hüseynova raport verdi. Ali rütbəli zabit əlamətdar və tarixi gün münasibətilə şəxsi heyəti salamlayaraq, təbrik etdi. Hərbi marşın sədaları altında üçrəngli bayrağımız meydana gətirildi. Müstəqilliyimizin rəmzi olan dövlət himni oxundu.

General-mayor Zahid Hüseynov çıxış edərək ölkəmizdə həyata keçirilən genişmiqyaslı quruculuq işlərini, orduya dövlət rəhbərliyi tərəfindən göstərilən böyük qayğı və diqqəti xüsusi vurğuladı. Bildirdi ki, ulu öndərin layiqli davamçısı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qayğısı ilə Silahlı Qüvvələrimiz qüdrətli inkişaf yolu keçmiş və regionumuzun ən güclü, müasir tələblər səviyyəsində qurulan orduya çevrilmişdir. Silahlı Qüvvələrimiz Ali Baş Komandanın əmrini yerinə yetirməyə qadirdir.

Zabit Əbil Əmirov Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun şəxsi heyətə təbrikini oxudu.



Komandir hərbi hissənin yaranma tarixini, keçdiyi döyüş yolunu xatırladaraq qeyd etdi ki, şəxsi heyət igid, qəhrəman döyüşçülərimizin yolunu davam etdirmək üçün Müdafiə Nazirliyinin təsdiq etdiyi plana əsasən, döyüş hazırlığına xüsusi diqqət yetirir. Əsgəri həyatın əsası sayılan nizam-intizama ciddi əməl etməklə öhdələrinə düşən vəzifələri fədakarlıqla yerinə yetirirlər. Həyata keçirilən məqsədyönlü tədbirlər şəxsi heyətimizin də ruh yüksəkliyini daha da artırıb. Artilleriyaçılar göstərilən yüksək etimadı doğrultmaq üçün qarşıda duran vəzifələrə fədakarlıqla əməl edir.

Zabit Mansur İbadov da çıxış edərək şəxsi heyətin Vətən əmrinə hazır olduqlarını bir daha diqqətə çatdırdı. Topçu əsgər Şəhriyar Ələsgərli Vətən andına həmişə sadiq qalacaqlarını, ləyaqətlə xidmət edəcəklərini bildirdi. İldönümü münasibətilə şəxsi heyətin mükafatlandırılması haqqında hərbi hissə komandirinin əmri oxundu. Döyüş hazırlığında daha çox fərqlənən əsgər və zabitlərə fəxri fərmanlar, qiymətli hədiyyələr təqdim olundu. Mərasim incəsənət ustalarının konsert proqramı ilə başa çatdı.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

# Döyüş vərdişlərimi həvəslə artırıram

***Hərbi xidmətə ötən ilin oktyabr ayında çağırılmışam. Bu payız günü mənim ömür kitabımın səhifələrinə böyük hərflərlə yazılıb. Çünki həmin gündən ordu həyatım - ömrümün ən şərəfli anları başlayıb.***

Quba rayonundan ordu sıralarına yola düşəndə, cəbhə bölgəsində yerləşən hərbi hissədə xidmət edəcəyimi öyrənəndə buna çox sevindim. Torpaqlarımızın 20 faizini işğal etmiş erməni işğalçılarına kinim, nifrətim sonsuz olduğundan, istəyirdim ki, onlarla üz-üzə dayanıb, vuruşum, şəhidlərimizin intiqamını alım.

Xidmətə başladığım ilk gündən təlim-məşqlərdə fəal iştirak edərək hərbi bilikləri öyrənməyə səy göstərdim. Çalışqanlığım müsbət nəticə verirdi. Günlər, həftələr keçdikcə mərhələ-mərhələ hərbi bilikləri və döyüş vərdişlərini öyrənirdim. Bu sahədə təcrübə və səriştəm artdıqca daha da həvəslənirdim. Nəzəri dərslər başa çatdıqdan sonra əməli məşğələlər başlandı. Atış çalışmasını yerinə yetirmək üçün təlim mərkəzinə yollandıq. İlk cəhdimiz, ilk sınağımız uğurla başa çatdı. Hədəfləri dəqiq vuraraq təlimdə fərqlənənlərdən biri də mən oldum. Hərbi bilikləri dərindən öyrəndiyimə görə bölük komandirim baş leytenant Mirdamət Bağıyevə minnətdaram.



Böyük qardaşım leytenant Həmid Rəhimov Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini ötən il bitirib. Hazırda "N" hərbi hissəsində taqım komandiri kimi xidmət edir. Bu yaxınlarda Həmid yanıma gəlmişdi. Qardaşım mənə xeyli dəyərli məsləhət və tövsiyələr verdi.

Xidmətimin xeyli hissəsi hələ qarşıdadır. Bundan sonra da təlimlərdə fəal iştirak edəcəm, hərbi bilik və döyüş vərdişlərimi daha da artıracağam. Torpaqlarımızın azadlığı uğrunda döyüşə, vuruşa həmişə hazır olacağam.

**Əsgər**
**Təhmasib RƏHİMOV,**
**"N" hərbi hissəsi**

Cəmşid Naxçıvanski - 120

# "O, Vətəni Azərbaycanı, doğulduğu Naxçıvanı çox sevirdi"

I məqalə

***Azərbaycanın milli hərb sənəti tarixində mühüm yer tutan görkəmli general Cəmşid Naxçıvanskinin bu il anadan olmasının 120 illiyi tamam olur. Azərbaycan Respublikası Prezidentinin "Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında" 2015-ci il 2 aprel tarixli sərəncamında deyilir: "Cəmşid Naxçıvanski bacarıqlı sərkərdə kimi şərəfli döyüş yolu keçmiş və Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizələrdə göstərdiyi şücaətlərlə milli hərb sənəti tarixinə dəyərli töhfələr vermişdir".***

C.Naxçıvanski yunkerlikdən və sıravi əsgərlikdən general rütbəsinədək yüksəlmişdir. Arxiv sənədlərindən, müasirlərinin xatirələrindən məlum olur ki, onun həyat yolu nə qədər əzablı keçib. Xan əsilli sərkərdə ulu babalarının döyüş yolunu özünəməxsus istedad və bacarıqla davam etdirib. Görkəmli hərb xadimi haqqında Azərbaycanda, o cümlədən keçmiş Sovet İttifaqında nə qədər məqalələr yazılıb, çap edilib.

Ulu öndər Heydər Əliyev Azərbaycanın rəhbəri seçildiyi Sovet dönəmində sərkərdənin adının əbədiləşdirilməsi üçün qəti addımlar atdı. C.Naxçıvanski haqqında elmi və elmi-publisistik məqalələr işıq üzü görməyə başladı.

Ona aid ilk qəzet yazısı unudulmaz tarixçimiz Əli Əliyevə məxsusdur. Əli müəllimin böyük təəssübkeşliklə yazdığı yazı 7 yanvar 1971-ci ildə "Azərbaycan gəncləri" qəzetində oxuculara təqdim olunub. Bundan sonra bir çox qəzetlərdə Azərbaycan və rus dillərində C.Naxçıvanskinin hərbi fəaliyyətinə aid məqalələr nəşr olunmağa başlanıb. Həmin illərdə arxivlər bağlı olduğundan müəlliflər ancaq Sovet senzurasının icazə verdiyi hissələri çap edə bilərdilər. Bu cür qayda isə yazılan məqalələri "xüsusi qəlibə" salırdı.

Azərbaycan müstəqilliyini yenidən bərpa etdikdən sonra jurnalistlər və tarixçilər C.Naxçıvanski haqqında yeni kitablar yazdılar. Bunlardan ən mükəmməli Rusiya tarixçisi Rudolf İvanovun uzun illər apardığı tədqiqatlarının nəticəsi olaraq qələmə aldığı 832 səhifəlik "Sovet İttifaqı adından" kitabıdır... Bu gün Rusiya Dövlət Hərb Tarixi Arxivində C.Naxçıvanskiyə aid sənədlər fondlarda saxlanılır.

C.Naxçıvanskinin Rusiya Dövlət HərbTarixi Arxivində saxlanılan xidmət kitabçasından məlum olur ki, o, 9 avqust 1895-ci ildə Naxçıvanda ştabsrotmistr Cəfərqulu xan Kəngərli-Naxçıvanskinin ailəsində doğulub. Ailənin ikinci övladı olan Cəmşidin bir bacısı və 4 qardaşı olub. III Kalbalı xan, Cəmşid xan, Nazlıbəyim, Teymur xan, III Ehsan xan və Davud xan.

Cəmşid ilk təhsilini evdə xüsusi müəllimlərdən alaraq ana dilində yazmağı, həmçinin rus və fransız dillərini öyrənib. Sonralar İrəvanda pansionda oxuyub. Onun Tiflis kadet korpusunda oxumağa getdiyi vaxtı da müxtəlif illərə aid edirlər. Aparılan axtarışlardan məlum olur ki, Cəmşid 1914-cü ilin martında Tiflis kadet məktəbində 7 illik təhsilini başa vurub. Bu tarix ona verilən şəhadətnamədə də öz əksini tapıb: 30 apreldən 14 iyunadək kadet məktəbində imtahan verib. Deməli, onun kadet məktəbinə daxil olduğu dəqiq tarix 1907-ci ildir. O, kadet məktəbində imtahanları müvəffəqiyyətlə verərək, 3 aylıq hərbi xidmətdən sonra 8 noyabr 1914-cü ildə ilk yunker-unter rütbəsini alıb. Tiflis kadet məktəbini bitirəndə Cəmşidin 19 yaşı var idi.



Çar Rusiyasının qayda-qanunlarına görə, 21 yaşına çatmamış oğlanların hərbi məktəblərdə oxumalarına valideynlərinin icazə verməsi mütləq hal idi. Onun atası Cəfərqulu xan 23 iyul 1914-cü ildə razılıq ərizəsi yazdıqdan sonra Cəmşid həmin ildə Qərbi Ukraynanın Yelizavetqrad şəhərindəki qvardiya məktəbinə daxil olur. C.Naxçıvanskinin qvardiya məktəbinə daxil olduğu tarix 30 avqust 1914-cü ildir. Birinci Dünya müharibəsinin başlanması ilə əlaqədar Cəmşid burada cəmi 4 ay təhsil ala bilir. O, 6 sentyabr 1914-cü ildə Rusiya ordusunda xidmət etmək üçün Yelizavetqradda hərbi and içir. O, Rusiya imperiyasının müsəlmanlardan təşkil olunmuş Qafqaz yerli süvari diviziyasının tatar (azərbaycanlı) alayındakı ehtiyat yüzlüyə hərbi xidmətə göndərilir. Cəmşid 1 dekabr 1914-cü ildə həmin ehtiyat yüzlükdə hərbi xidmətə başlayır. Qeyd edək ki, elə həmin tarixdə də ona gənc zabit rütbəsi - praporşik verilir. Onun haqqında olan bu məlumatlar 1915-ci il aprelin 15-də yazılan xidmət kitabçasında qeyd olunub. Həmin xidmət kitabçasını diviziya komandiri Böyük Knyaz Mixail Aleksandroviç Romanov və diviziyanın qərargah rəisi polkovnik Yuzefoviç imzalayıblar. Buradakı məlumatlar dəqiqliyinə görə çox inandırıcıdır. Cəmşidin tatar süvari alayında ehtiyat yüzlükdə xidmətə başlaması haqda əmr 4 mart 1915-ci ildə Buqaç şəhərində imzalanıb. Tatar süvari alayının birinci yüzlüyündə müharibə cəbhəsində hərbi xidmətə başlayan Cəmşid ilk hərbi tapşırığını alır: poliqonda atış vaxtı rəhbərlik gənc zabitə tapşırılır. 7 mart 1915-ci il tarixi onun üçün, bir növ, sınaq tarixi olur. Gənc zabit ilk gündən arzulayır ki, olduqca qədim tarixi olan Naxçıvanın Kəngərli süvariləri kimi döyüş meydanlarında da igidlik, qəhrəmanlıq göstərsin. 19 mart 1915-ci ildə Cəmşid müvəqqəti olaraq alay komandirinin yavəri-adyutantı təyin edilir. Tatar alayı Çervonoqrad kəndində yerləşdiyi vaxt o, müvəqqəti yavərlik vəzifəsini təhvil verir. Gənc zabit müharibədə göstərdiyi hünərə və şücaətə görə 22 iyul 1915-ci ildə 4-cü dərəcəli "Müqəddəs Anna" ordeni ilə təltif olunsa da, bu mükafatı ona 14 fevral 1916-cı ildə təqdim edirlər. Avqust ayının 25-də Cəmşid Novoselka kəndinin yaxınlığında gedən qızğın döyüşlərdə yaralanır və müalicə olunmaq üçün hospitala göndərilir. Alay komandiri polkovnik Polovtsev Cəmşidi "Müqəddəs Georgi" silahı mükafatına təqdim etsə də, Cənub-Qərb cəbhəsinin Duması bunun gənc zabitə hələ tez olduğunu bildirir. Cəmşidə 19 sentyabr 1915-ci ildə kornet hərbi rütbəsi verilir. Tatar (azərbaycanlı) süvari alayı Kosova kəndində yerləşdiyi zaman C.Naxçıvanskinin 3-cü dərəcəli (bant və qılınclarla birlikdə) "Müqəddəs Stanislav" ordeni ilə təltif olunması elan edilir. Bu mükafat ona 12 may 1916-cı ildə təqdim olunur. Birinci Dünya müharibəsində Qafqazın yerli əhalisindən yaradılmış diviziyanın ("Dikaya Diviziya") tatar (azərbaycanlı) süvari alayının birinci yüzlüyünün birinci manqa komandiri təyin ediləndə Cəmşid xanın 20 yaşı var idi. Əmr 18 fevral 1916-cı ildə imzalanıb. 31 may 1916-cı ildə alayın apardığı döyüşlərdə gənc zabitin aslan kimi döyüşdüyünü görən Qafqaz yerli süvari diviziyasının tatar süvari alayının komandiri Polovtsev yenidən 5 iyul 1916-cı ildə cəbhənin Georgi Dumasına məktub göndərir. O, bu məktubda bildirir ki, kornet Cəmşid "Georgi Silahı"nı almağa layiqdir. Bu komandir Georgi Dumasına 3-cü məktubu idi. 26 yanvar 1917-ci ildə onu "Müqəddəs Georgi Silahı" ilə təltif edirlər. Qeyd edək ki, mayın 31-də olan qızğın döyüşlərdə Cəmşid ikinci dəfə yaralanır. 12 may 1916-cı ildə Rusiya imperatorunun əmri ilə tatar süvari polkunun korneti C.Naxçıvanski 3-cü dərəcəli (qılınclarla və bantla birlikdə) "Müqəddəs Stanislav" ordeni ilə təltif edilir.

**Musa QULİYEV**
**AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru**

---

Təlim

# Hazırlıqda birincilər sırasında



***Məşğələnin gərgin dəqiqələri idi. Əsgərlər komandirin verdiyi əmrləri yerinə yetirərək cəld hərəkətlərlə özüyeriyən artilleriya qurğusunun üzərinə atılır, onu "döyüş" və "səfər" vəziyyətinə gətirirlər. Zirehli texnikanın mühərriki uğuldayıb geniş çöllərə səs salır. Verilən əmr və tapşırıqların təyinatı üzrə özüyeriyən artilleriya qurğusunun lüləsi hədəflərə tuşlanır. Məşğələdə iştirak edən əsgərlərin üz-gözündə cəsarət və hünər sezilir.***

- Hər kəsə məlumdur ki, təlim keçib təcrübə toplamadan döyüşdə uğur qazanmaq mümkün deyil, - deyə batareya komandiri baş leytenant Elşən Vəliyev bizimlə söhbətə başladı. - Elə buna görə də özüyeriyən artilleriya qurğusunun heyəti gələcək döyüşlərdə uğur qazanmaq üçün keçirilən təlim-məşqlərdə fəal iştirak edərək döyüş hazırlıqlarını daim artırırlar. Neçə gündür ki, irimiqyaslı təlimlərdə iştirak edir, üzərimizə düşən tapşırıqları peşəkarlıqla yerinə yetirmək üçün əzmkarlıq göstəririk. Çalışırıq ki, müəyyən edilmiş hədəfləri dəqiq vuraq, uğur əldə edək, təcrübə qazanaq. Bir neçə gündən sonra təlimlər başa çatacaq. İnanıram ki, bizim adımız birincilər sırasında çəkiləcək. Çünki verilən bütün əmr və tapşırıqları yüksək peşəkarlıqla yerinə yetirmişik. Belə irimiqyaslı təlimlərdə döyüş təcrübəmiz daha da artır. Təlimlər zamanı əldə olunan təcrübə döyüşlərdə gərəyimiz olacaq. Dəqiq atəş zərbələri ilə düşməni məhv edib qələbə qazanacağıq.



Təlimdə fəal iştirak edən top komandiri gizir Xəlil Məmmədov, əsgərlərdən Bəylər Abduləhədov, Mübariz Həsənov, İlkin Vəliyev, Elşad Gözəlov və başqalarının ürək sözlərini dinlədim. Eşitdiklərimdən çox məmnun oldum. Azərbaycan zabitinin, əsgərinin döyüş hazırlığının yüksək olduğunun bir daha şahidi oldum, inamından qürurlandım.

Təlim davam edir, atəş səsləri Haramı düzünə səs salır, yeri-göyü silkələyir. Özüyeriyən artilleriya qurğusunun şəxsi heyəti üzərlərinə düşən tapşırıqları bacarıq və peşəkarlıqla yerinə yetirir. Təbiidir ki, döyüş hazırlığı yüksək olan belə əsgərlərin adları birincilər sırasında çəkiləcək.



***Zabit Kənan Həziyevlə birlikdə ön xəttə gedirik. Hər tərəfdə sakitlik hökm sürür.***

- Düşmən atəşkəs rejimini tez-tez pozmağa cəhd göstərir, - deyir zabit Kənan Həziyev. - Erməni qəsbkarlarının bütün cəhdlərinin qarşısı qətiyyətlə alınır. Ön xətdə dayanıb torpaqlarımıza keşik çəkən zabit və əsgərlərimiz atəşkəs rejimini pozmağa cəhd göstərən düşmənə layiqli cavab verirlər. Ağır itki verən düşmən hər addımda gücsüzlüyünü, acizliyini hiss edir və geri çəkilir.

Yolüstü yüksəkliklərin birində mövqe tutmuş zabit və əsgərlərlə görüşürük. Şəxsi heyət təlim keçirdi. Əsgərlər tankəleyhinə dəzgahlı qumbaraatan qurğusunu "döyüş" və "səfər" vəziyyətinə gətirirdilər.

- Şəxsi heyətə müntəzəm olaraq dərs və məşğələlər keçirik, - leytenant Mübariz Süleymanov bildirir. - Məşğələlər səmərəli keçir. Əsgərlər hərbi bilik və vərdişləri həvəslə mənimsəyirlər. Gündən-günə onların təcrübələri artır. Tam inamla deyə bilərəm ki, əsgərlərimizin döyüş hazırlığı yüksək səviyyədədir. Onlar istənilən an düşmən hədəflərini məhv etməyə hazırdırlar. Bir müddət əvvəl şəxsi heyət irimiqyaslı təlimlərdə fəal iştirak etdi. Qarşıya qoyulan vəzifələr yüksək peşəkarlıqla yerinə yetirildi.

Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kiçik çavuş Bağırlı Məmmədzauroviç, həmçinin əsgərlərdən Azər Budaqov, Rüstəm Mirzəyev və Mövlan İsmayılovla da görüşüb söhbət etdim. Onlar bildirdilər ki, hərbi bilikləri daha da dərindən öyrənəcək, yurdumuzun müdafiəsində həmişə ayıq-sayıq dayanacaqlar.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

---

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Mövzu:** Hərbi etikanın əsasları. Hərbi kollektivdə qarşılıqlı münasibətlər, yüksək davranış qaydaları və sağlam əhval-ruhiyyənin yaranmasında əsgərin rolu.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Silahlı Qüvvələrin nizamnamələrindən istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

**Suallar:**
**1. Hərbi etikanın əsasları.**
**2. Hərbi kollektivlərdə qarşılıqlı münasibətlər və yüksək davranış qaydaları.**

## Hərbi etikanın əsasları

Hərbi xidmət insanlardan yüksək intizam, icraçılıq, dəqiqlik, təmkinlilik, dözümlülük və çeviklik tələb edən fəaliyyət sahəsidir. Hərbi qulluqçuların xidməti fəaliyyət və ondan kənar vəziyyət şəraitində davranış, müvafiq hərəkət və hadisələrə düzgün reaksiya vermə qabiliyyətini formalaşdıran əxlaqi normalar öz əksini hüquqi sənədlərdə, qanunlarda, nizamnamələrdə, təlimatlarda, komandirlərin əmrlərində tapıb. Buna görə əxlaqi tələblər qanun qüvvəsinə minir. Məsələn, qorxaqlıq cəmiyyətdə insanın psixoloji durumunun keyfiyyət göstəricisi kimi yalnız mənəvi baxımdan pislənirsə, hərbi kollektivdə aşkar edilən qorxaqlıq isə çətin məqamda döyüş tapşırığının uğurla yerinə yetirilməsinə mane olan zərərli və təhlükəli bir amil kimi aradan qaldırılmalıdır.

Odur ki, hərbi qulluqçuların qarşısında həmişə hərbi-etik normalardan irəli gələn yüksək tələblər qoyulur.

Bununla belə, əxlaq qanunlara, nizamnamələrə kor-koranə tabe etdirilmir. Əksinə, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi xidməti tənzimləyən bütün hüquqi sənədlər, o cümlədən Daxili Xidmət, İntizam, Qarnizon və Qarovul Xidməti və Sıra nizamnamələri Vətən qarşısında borcun yerinə yetirilməsində könüllülüyün, şüurluluğun, təşəbbüskarlığın vacibliyini vurğulayır.

Hərbi xidmətə çağırılan hər kəs Vətənimiz Azərbaycana sadiq olacağına, hərbi nizamnamələrin tələblərini dəqiq yerinə yetirəcəyinə, komandirlərin və rəislərin əmrlərinə sözsüz tabe olacağına təntənəli surətdə and içir.

Hərbi borcunu daim nümunəvi yerinə yetirən hər bir bacarıqlı döyüşçü yüksək mənəviyyata malikdir. Hərbi borcu həm də ləyaqətlə yerinə yetirmək hərbçinin şərəf işidir. Öz vəzifəsinə layiqincə yanaşmaq hərbi qulluqçulardan bəzən böyük çətinlikləri dəf etməyi tələb edir. Hərbi kollektivin uğuru onun hər bir üzvünün fəaliyyətindən asılıdır. Əgər hamı öz vəzifəsinə hərbi andın, nizamnamələrin tələblərinə uyğun yanaşırsa, deməli, nailiyyət labüddür.

Hərbi etikanın vacib normalarından biri hərbi kollektivdə böyüyə hörmət etmək, subardinasiya prinsipinə riayət etməkdir. Vəzifəcə və rütbəcə kiçik olanlar rəisləri nizamnaməyə uyğun olaraq əsgəri qaydada birinci salamlayır və onlara rütbələri ilə müraciət edirlər.

Hərbi qulluqçular öz aralarında da nəzakətli olmalı, bir-birinə "siz" deyə müraciət etməlidirlər. Bu qayda rəislərə də, onların tabeliyində olanlara da eyni dərəcədə şamil edilir.

Azərbaycan zabiti və əsgəri adını daşıyan hər kəs öz yüksək mədəniyyəti, nəzakəti, təvazökarlığı ilə nümunə olmalıdır. İctimai yerlərdə, nəqliyyatda hərbi qulluqçu rütbəcə böyük olan zabiti, rəisi salamlamalı, ona hörmət etməlidir.

Hərbçilər mülki əhaliyə qarşı da nəzakətli davranmalı, Azərbaycan zabiti və ya əsgəri adını uca tutmalı, bu şərəfli ada ləkə gətirməməlidirlər. Bədbəxt hadisələr zamanı biganə qalmamalı, bacardıqları köməyi göstərməlidirlər. Hər bir döyüşçü səliqəli geyinməli, əlini cibində saxlamamalı, rəisinin və ya komandirinin yanında qeyri-etik hərəkətlərə yol verməməlidir.

Hərbi qulluqçunun mənəvi simasını göstərən cəhətlərdən biri də onun danışığıdır. Ünsiyyət zamanı aydın, səlis, inandırıcı sözlərə üstünlük vermək lazımdır.

## Hərbi kollektivlərdə qarşılıqlı münasibətlər və yüksək davranış qaydaları

Hərbi xidmətə çağırılan hər bir kəs ordu kollektivinin bir üzvünə çevrilir və silahdaşları ilə nizamnamələrin tənzimlədiyi ictimai və qarşılıqlı münasibətlərə girir.

Hərbi nizamnamələr Silahlı Qüvvələrin xüsusiyyətini və qarşısında duran vəzifələri nəzərə almaqla hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin prinsiplərini müəyyən edir.

Vahid rəhbərlik, təkbaşçılıq və hərbi-etik normalar kollektivdə sağlam və işgüzar iqlimin yaradılmasında aparıcı rol oynayan komandir və rəislərin tabeliyindəkilərə qarşı kifayət qədər tələbkar olmalarını, sonuncuların isə verilmiş əmr və tapşırıqları sözsüz və dəqiq yerinə yetirmələrini, yuxarıda qeyd edildiyi kimi, rütbəcə böyüklərə hörmət göstərmələrini, hərbi salam və nəzakət qaydalarına ciddi əməl etmələrini nəzərdə tutur.

Bir rəhbər və hərbçi-pedaqoq kimi rəis yalnız sözlə, komanda və əmrlə deyil, işə və insana münasibəti ilə də tabeliyindəkilərə təsir göstərir. Tələbkarlıqla yanaşı, zabit həm də qayğıkeş və ədalətli olmalı, hərbi qulluqçular arasında qarşılıqlı inam və səmimiliyin, döyüş yoldaşlığının bərqərar olunmasına çalışmalıdır. Qayğı və inamın mənəvi-psixoloji amil kimi mühüm əhəmiyyəti ondadır ki, döyüşçülərdə nəinki öz komandirlərinə etimad və hörmət hissi aşılayır, eyni zamanda öz hərbi borcunu ləyaqətlə yerinə yetirməyə həvəs yaradır.

Hərbi qulluqçular arasında kollektivçilik prinsipi nizamnamələrdə geniş yer tutur. Əsgər, çavuş, gizir və zabitlər arasında kollektivçilik, döyüş yoldaşlığı həm əxlaqi, həm də hüquqi norma kimi təzahür edir. Nizamnamələr hərbçilərdə döyüş yoldaşlığını uca tutmağı, sözdə və əməldə silahdaşlarına kömək etməyi, onları nalayiq hərəkətlərdən çəkindirməyi tərbiyə edir.

Əsgər və matroslar arasında münasibətlər döyüşçülərin hərəkət və davranışına, onlarda bir çox şəxsi mənəvi keyfiyyət və vərdişlərin formalaşmasına bilavasitə və ciddi təsir göstərir. Ona görə tabeliiyindəkilərə müvəffəqiyyətlə rəhbərlik etmək, hərbi kollektivi möhkəmləndirmək üçün həmin münasibətləri hər bir zabit və çavuş yaxşı bilməlidir.

Hər bir hərbi kollektivdə təlim və döyüş tapşırığını birgə yerinə yetirərkən, ictimai işlərdə, məişətdə əsgər və matroslar arasında, adətən, qarşılıqlı rəğbət və bağlılıq, dostluq və qardaşlıq hissləri yaranır, döyüşçülər vaxt və qüvvə əsirgəmədən hərbi texnikanın sirlərini öyrənməkdə, çətin məqamlarda bir-birinə kömək edir, bir-birinin uğuruna sevinirlər.

Bununla belə, sıravi döyüşçülərin arasında nizamnamə tələblərinin pozulması halları da müşahidə edilir. Bu, adətən nizam-intizamın vəziyyəti ilə, zabit və çavuşların öz vəzifələrinə kifayət qədər ciddi yanaşmamaları ilə, əsgər və matroslar arasında xidmət müddətinin fərqi ilə, onların orduyaqədərki həyat tərzi və vərdişləri ilə izah olunur. Əsgər və matroslar arasında göstərilən mənfi hallar komandir və rəislərdən tərbiyə işinin gücləndirilməsini, neqativ halları doğuran səbəblərin vaxtında aradan qaldırılmasını tələb edir.

Hərbi kollektivlərdə bəzən bir neçə hərbi qulluqçunun birləşdiyi kiçik qrupların yaranması hallarına da təsadüf edilir, bu qruplar ümumi maraq, fəaliyyət, hərbi xidmətə münasibət zəminində ortaya çıxırlar. Hətta ən mehriban kollektivlərdə belə iki və bir neçə nəfərdən ibarət belə qruplar yaranır. Çox vaxt bu qruplar öz silahdaşlarına müsbət təsir göstərir, hərbi kollektivi möhkəmləndirən amil rolunu oynayırlar. Ancaq bəzən özünü kollektivə qarşı qoyan qruplar da əmələ gələ bilər. Belə qruplara qarşı mövqeni düzgün müəyyənləşdirməklə, həm obyektiv amilləri, həm də də daxili-psixoloji motivləri üzə çıxarmaq olar.

Ona görə komandirlər və tərbiyə işi orqanı zabitləri üçün kollektivlərdə mövcud olan qarşılıqlı münasibətlərin konkret təzahürlərini bilmək, onları təhlil etmək, mənfi halların yaranması və inkişafının səbəblərini vaxtında aşkara çıxarmaq, nizamnamələrin tələblərinə uyğun qarşılıqlı münasibətlərin düzgün vasitə və yollarını seçmək vacibdir.

Hərbi-etik davranış xüsusiyyətləri hərbi xidmət nizamnamələrində öz əksini geniş şəkildə tapmışdır və həmin normalar zabitlərimiz üçün qarşılıqlı münasibətlərin tənzimlənməsinə, ordu kollektivində möhkəm hərbi intizamın təşəkkül tapmasına xidmət edən yararlı istifadə mənbəyidir.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

# Silahlı Qüvvələrdə səmti müəyyənetmə birinciliyi keçirilib



***Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, Silahlı Qüvvələrdə idman yarışlarının keçirilməsi ənənə halını alıb. Silahlı Qüvvələrin idmançıları ölkə və beynəlxalq yarışlarda fəal iştirak edirlər ki, bu da özlüyündə hərbçilərin yüksək döyüş, fiziki, mənəvi-psixoloji hazırlıq səviyyəsini yüksəltmək, ordumuzun müdafiə qüdrətini artırmaq üçün vasitə olur.***

Silahlı Qüvvələrin səmti müəyyənetmə birinciliyində qadın hərbi qulluqçular da fəal iştirak edirdilər. Yarış iştirakçıları "N" hərbi hissəsində xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsinin ziyarətindən sonra Müdafiə Nazirliyinin fiziki hazırlıq və idman bölməsinin rəisi polkovnik Sadiq Paşayev çıxış edərək yarış iştirakçılarına uğurlar arzuladı.

Respublika dərəcəli hakim Oktay Rzayev bildirdi ki, səmti müəyyənetmə hərbi tətbiqi idman növü kimi geniş yayılıb. Bu yarış Silahlı Qüvvələrdə də bir neçə ildir ki, keçirilir. İnanıram ki, idmançılarımız indi də yeni uğurlar qazanacaqlar. Bu idman növü hərbçilərin dözümlülüyünü, çevikliyini, hərbi biliyini artırır. Hər kəs qarşısına qoyduğu məqsədə çatmaq üçün bütün maneələri uzaqgörənliklə, bacarıqla, düşüncə ilə həll etməlidir. Birinciliyin keçirilməsi üçün meşəlik, dağlıq ərazilərin olması əsas şərtdir. Ona görə də yarış üçün əlverişli ərazi seçilib.

İdmançılar hərəkət edəcəyi ərazinin planını götürərək növbə ilə start meydanına daxil olurlar. Onlar kompasla səmti müəyyənləşdirib hərəkətə başlayırlar. Bir müddətdən sonra hakimlər finiş meydanına gəlirlər. Onlar birincilik uğrunda mübarizə aparan idmançıları qarşılayırlar. Müəyyən edilmiş vaxt ərzində 9 kilometrlik məsafəni qət edib finiş xəttinə çatan idmançılar sırasında qadın hərbi qulluqçular da vardı.

İkinci gün yarış başqa ərazidə keçirildi. İdmançılar fərdi qaydada yarışa qoşuldular. Yarışların baş hakimi Oktay Rzayev bildirdi ki, yarışlarda 44 nəfər kişi, 15 nəfər qadın hərbi qulluqçu iştirak edir.

Yarışın ikinci mərhələsi də yüksək səviyyədə keçdi. Hərbi qulluqçular yüksək dözümlülük, qabiliyyət və çeviklik nümayiş etdirdilər. Yarışların üçüncü günü "N" hərbi hissəsində idmançıların mükafatlandırılması mərasimi keçirildi. Mərasimdə çıxış edən Müdafiə Nazirliyinin fiziki hazırlıq və idman bölməsinin rəisi polkovnik Sadiq Paşayev yarışda fəal iştirak etdiklərinə görə hərbçilərə minnətdarlığını bildirdi. Onu da qeyd etdi ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana uyğun olaraq ordu idmanının inkişafı istiqamətində məqsədyönlü tədbirlər davam etdiriləcək.





Komanda yarışlarında "Şəmkir" komandasının təmsilçiləri birinci yerə, Hərbi Hava Qüvvələrinin idmançıları ikinci yerə, "Bərdə" komandasının idmançıları isə üçüncü yerə layiq görüldülər.

Şəxsi yarışlarda hərbi qulluqçulardan Bəxtiyar Zamanov birinci, Elgün Bayramov ikinci, Ələkbər Əkbərov üçüncü yeri tutdu. Qadın hərbi qulluqçular arasında Ülkər Sadıqova birinci, Zeynəb Qasımova ikinci, Firəngiz Kazımova üçüncü yerə layiq görüldü. Qaliblərə Müdafiə Nazirliyi adından fəxri fərmanlar, diplomlar, birinci yeri tutan komandaya isə birinciliyin kuboku təqdim olundu.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

## Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

*"Vətənə, xalqa, dövlətə xidmət ömrümüzün mənasıdır!"*

# Hazırlığı yüksək olanlar qalib gəldi



***Azərbaycan Respublikası Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq əmri ilə hərbi hissə və birləşmələrdə şəxsi heyətin döyüş, həmçinin mənəvi-psixoloji hazırlığının artırılması məqsədilə müxtəlif yarışlar keçirilir.***

Bu günlərdə Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində şəxsi heyətin döyüş, mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi intizamın daha da möhkəmləndirilməsi məqsədilə "Vətənə, xalqa, dövlətə xidmət ömrümüzün mənasıdır!" devizi altında "İctimai-siyasi hazırlıq üzrə ən yaxşı qrup" yarışı keçirilib.

Yarışa bir neçə qrup qatılıb. Zabit və əsgərlər birincilikdə fəal iştirak edərək müsbət nəticə göstərməyə çalışıblar. Yarış çox yüksək səviyyədə təşkil olunub. Birinciliyin qaydalarına uyğun olaraq ictimai-siyasi hazırlıq üzrə nümunəvi dərslər keçirilərək və ən yaxşı qrup seçilib.

Yarışa yekun vurularkən göstərilən nəticələr ciddi müzakirə olunub. Yekun rəyə əsasən, kapitan İxtiyar Əliyevin rəhbərlik etdiyi qrup yarışın qalibi adını qazanıb. Bir sözlə, hazırlığı yüksək olanlar qalib gəliblər.

Qaliblər hərbi hissə komandiri tərəfindən fəxri fərmanla mükafatlandırılıb.

* * *

"N" hərbi hissəsində də şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi intizamın möhkəmləndirilməsi, zabit və əsgərlərin asudə vaxtının səmərəli təşkili, həmçinin fiziki hazırlıq səviyyəsinin daha da artırılması məqsədilə "Vətənə, xalqa, dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında intellektual bilik yarışması keçirilib. Birincilikdə Ağcabədi rayon Gənclər və İdman İdarəsindən, həmçinin icra hakimiyyətindən nümayəndələr iştirak edib. Gərgin keçən yarışda zabitlərdən kapitan Mahir Qasımov, əsgərlərdən Zəmanət Tağıyev, Hacı Ələsgərov və Rəşid Davudov daha çox fəallıq göstərərək qalib gəliblər.

Birinci, ikinci və üçüncü yerləri tutan komandaların üzvlərinə fəxri fərman və qiymətli hədiyyələr təqdim olunub.

**"Azərbaycan Ordusu"**




# “Həyəcan siqnalı”nda səmimi söhbət

Hər layihə hansısa ideyanın gerçəkləşməsinə yönəldilir. Mahiyyətcə dövlətçiliyə, milli-mənəvi dəyərlərə sevgi və hörmət aşılayan ideya ictimai fikrin formalaşmasında yetərincə əhəmiyyətə malik olur. Gənc jurnalistlərin hərbi sahədə bilik və yaradıcılıq bacarığının artırılmasına, dövlətçiliyə sədaqət, milli maraqlar naminə prinsipiallıq vərdişləri formalaşdırmaq baxımından Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu ilə "İrəli" İctimai Birliyinin "Həyəcan siqnalı" layihəsi də gerşəkləşdirildi. "İrəli" İctimai Birliyi mətbuat xidmətinin rəhbəri Türkan Əkbərovanın təşkilatçılığı ilə "Müharibə jurnalistikasının qaydaları" və "Hərbi sahədə informasiya əldə etmək mədəniyyəti" mövzusunda təlim formatında gerçəkləşdirilən layihədə 30 nəfər gənc jurnalist iştirak edirdi.

Gənc jurnalistlərə son vaxtlarda Silahlı Qüvvələrimizdə aparılan islahatlar, bu islahatların mahiyyəti barədə danışdım... Ordumuzun döyüş və mənəvi hazırlığının yüksək səviyyədə olması, döyüş hazırlığının çöl şəraitində, gündüz və gecə şəraitində keçirilməsi, qoşunların döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılması məqsədilə hissə və bölmələrin ən müasir artilleriya və reaktiv qurğuları, minaatan kompleksləri... ilə təmin edilməsini onlara söylədim. Ali Baş Komandanın, Müdafiə nazirinin müntəzəm olaraq döyüş bölgələrində olması, bunun Silahlı Qüvvələrin şəxsi heyətinin mənəvi hazırlığına böyük təsir göstərməsi və s. haqqında məlumat verdim. Bu, zəruri idi.

Hərbi jurnalistikaya maraq göstərən gənc müxbir ordumuz haqqında necə yazacağını daha əhatəli səviyyədə bilməlidir. Azərbaycan Respublikası Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Silahlı Qüvvələrdə kütləvi informasiya vasitələrinin nümayəndələri ilə işin təşkililə bağlı təsdiq etdiyi təlimatı mütləq nəzərə almalıdır. Onu da bilməlidir ki, müxtəlif qarnizonlarda zəruri infrastrukturlara malik neçə-neçə yeni hərbi şəhərcik istifadəyə verilib, ilin sonunadək daha bir neçə iri şəhərciyin tikintisi başa çatdırılacaq. Müdafiə Nazirliyi ilə icra hakimiyyətlərinin birgə təşkil etdikləri kütləvi hərbi vətənpərvərlik tədbirləri mahiyyət ertibarilə cəmiyyətlə ordunun birliyinin, dönməzliyinin, gənc nəslin Vətən sevgisinin daha geniş miqyasda təzahür etməsi istəyinin təsdiqidir. Gənc jurnalistlər bu faktlara istinadən bu və ya digər məqaləsində publisistik söz deyə biləcəklər. Belə münasibət ordunun gerçək təbliği baxımından gərəklidir. Həm də müharibə başa çatmadığından gərəkildir. Gənc jurnalistlər bilir ki, müharibə torpaqlarımız işğaldan azad ediləndə başa çatacaq...

Gənc jurnalistlər də bilir ki, informasiyanın əldə edilməsi mexanizmi müxtəlifdir. Cəbrən müharibəyə cəlb olunmuş dövlətin jurnalisti hansı informasiyanı ictimailəşdirməyin zəruriliyini ayırd etməyi bacarmalıdır. Hər informasiyanı ictimailəşdirməyə meyl peşəkarlığın deyil, sensasiyalara meylin təsdiqidir. Sensasiyaya meylli jurnalistin yaradıcılığı "buz üstə yazılmış yazı" misallıdır.

Digərləri kimi, gənc jurnalistlər də dövlətimizin informasiya təhlükəsizliyinə mənən məsuldur. Ötən ilin iyul ayının sonunda erməni kəşfiyyat-təxribat qruplarının Ermənistan-Azərbaycan dövlət sərhədində və qoşunların təmas xəttində mövqelərimizə basqın etməsi hamımızın yadındadır. Onda bəzi kütləvi informasiya vasitələri, xüsusən internet resursları və sosial şəbəkələrin istifadəçiləri bəzi hallarda zənnimcə, yanlış mövqe göstərdilər. Prezident Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin yanında dövlət orqanlarının informasiyanın verilməsinə məsul struktur bölmələrinin və kütləvi informasiya vasitələri rəhbərlərinin müşavirəsi cəmiyyətdə, sözün həqiqi mənasında həyəcanla qarşılandı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı KİV-lərin fəaliyyət istiqamətini müəyyənləşdirdi...

İnformasiya milli maraqlar nəzərə alınmaqla ictimailəşdirilməlidir. Belə olmasa, bu informasiya həm cəmiyyətdə müəyyən psixoloji gərginlik yaradır, həm də düşmən kəşfiyyatı üçün "göydən düşmə" olur. Bu isə dövlətçiliyimiz üçün arzuolunmaz münasibət deməkdir.

... Şəhidliyə həssas münasibət cəmiyyətin, bu sıradan jurnalistikanın birmənalı şəkildə əməl etməli olduğu mənəvi kamillikdir.

Atəşkəs pozulub. Əsgər şəhid olub. Valideynlərə rəsmi məlumat çatmadan şəhidin adı-soyadı göstərilməklə informasiya yayılır. Jurnalistika vəzifə borcunu düzgünmü yerinə yetirir?

1992-ci ilin payızında Zəngilana 1000-ə qədər yük maşını göndərilmişdi. Guya Zəngilan işğal ərəfəsindədi, əhalinin təhlükəsiz təxliyyəsi təmin olunmalıdır. Əslində, belə bir zərurət yox idi. Yayılan informasiya yüzlərlə ailənin vahiməyə görə köçünə səbəb olmuşdu. Doğrudur, az sonra əhali məlumatın yalan olduğuna inanmışdı, az qala öz əliylə söndürmək istədiyi ocağını ətəkləmişdi. Jurnalistika vəzifə borcunu düzgünmü yerinə yetirmişdi?..

Zəngilan işğal olunanda mətbuatda yayılan "Arazda qan su yerinə axır" informasiyası, sözün həqiqi mənasında, cəmiyyətdə olduqca səksəkəli bir vəziyyət yaratmışdı. Əzizləri Zəngilanda qalanlar İmişliyə axışmışdı. Halbuki, Zəngilanın son döyüşlərində təxminən 20 döyüşçü həlak olmuşdu, əhalidən nə yaralanan nə də həlak olan vardı. Dəqiqləşdirilməmiş informasiyanın ictimailəşməsi, mətbuatda yer alması cəmiyyətdə gərginliyi daha da artırırdı. Nəticədə insanlar stress keçirirdi.

...Digər ordularda olduğu kimi, bizdə də döyüş texnikasının planlı yerdəyişmələri olur. Bu proses dərhal foto, bəzən video çəkilişlər şəklində internetdə yer alır, zirehli texnikaların sayı, hərəkət istiqaməti və s. haqqında məlumat ictimailəşdirilir. Əhali arasında çaşqınlıq yaranır. Vətəndaş çəkir, göndərir, bəs internet informasiya resurslarının rəhbərləri informasiyanın ictimailəşməsinə niyə imkan yaradır, bu informasiyanın düşmənə nə dərəcədə gərəkli olduğunu nədən nəzərə almır?..

May ayının əvvəllərində sosial şəbəkələrdə cəbhə bölgəsində atəşkəsin pozulması nəticəsində 4 nəfər döyüşçümüzün şəhid olması haqqında məlumat yayılmışdı. Müdafiə Nazirliyi tərəfindən araşdırılma aparıldı. Məlum oldu ki, Silahlı Qüvvələrimizdə elə hərbçi yoxdur, bir hərbçi isə adı gedən hərbi hissədə deyil, başqa hərbi hissədə xidmət edir və şəhid olmayıb. İnformasiyanın nələr törətdiyini şərh eləməyə ehtiyac görmürük...

Gənc jurnalistlərin (Ceyhun Abbaslı, Vüsal Alayev, Orxan Salami, Əfsanə Əsgərova və b.) sualları maraq doğururdu. Hiss olunurdu ki, gənc jurnalistlər çağdaş hərbi jurnalistikamızın tarixinə, hərbi sahədə informasiya əldə etmə üsul və metodlarına, müharibə vaxtı jurnalistikanın fəaliyyətinə dair bilgilərə böyük maraq göstərir...

..."Həyəcan siqnalı" rəmzi olsa da, mahiyyəti etibarilə müəyyən həyəcan üçün xəbərdarlıqdı - milli təəssübkeşlik naminə, dövlətçilik naminə jurnalist xəbərdarlığı. Jurnalistlər ictimailəşdirmək istədikləri informasiyaya milli təəssübkeşlik mövqeyindən baxmağı heç vaxt unutmamalıdırlar!..

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

## İdman

### "Qarabağ" uduzdu, amma şansını saxladı



Azərbaycan çempionu "Qarabağ" Çempionlar Liqasının III təsnifat mərhələsində ilk oyununu keçirib. Apasport.az saytının məlumatına görə, Ağdam klubu Şotlandiyada "Seltik"in qonağı olub.

Hər iki komandanın qarşılıqlı hücumları ilə başlayan matçda "Qarabağ" səfər komandası olmağına baxmayaraq, inamlı təsir bağışlayırdı. Qarşılaşmanın 82-ci dəqiqəsində Boyata ev sahiblərini önə keçirdi. Minimal hesabla məğlub olan Qurban Qurbanovun yetirmələri avqustun 5-də keçiriləcək cavab qarşılaşması üçün şanslarını saxlayırlar.

### Otuz illik rekordu yeniləyən Azərbaycan atleti ilə görüş keçirilib



"Neftçi İdman Klubu" İctimai Birliyi idarəetmə aparatının rəhbəri Sadıq Sadıqov Avropa birinciliyində üç təkanla tullanma yarışlarında 17.04 metr nəticə ilə 30 illik rekordu yeniləyərək çempion adını qazanmış Nazim Babayev və onun məşqçisi Ziyad Xəlfəyev ilə görüşüb.

S.Sadıqov dövlətimizin başçısı tərəfindən həyata keçirilən uğurlu idman siyasətinin nəticələrindən danışıb, Azərbaycan idmançılarının ilk Avropa Oyunlarındakı uğurlu çıxışından bəhs edib. Gənc atleti qazandığı böyük uğur münasibətilə təbrik edən aparat rəhbəri yüksək nailiyyətə görə ona minnətdarlığını bildirib və müvəffəqiyyətlər arzulayıb.

Nazim Babayev Avropa birinciliyində almaniyalı idmançı Volker Mainin 1985-ci ildə əldə etdiyi 16.93 metrlik rekordu təzələyib.

### Tiflisdə dördüncü medal



Azərbaycan yığması Tiflisdə keçirilən Avropa Gənclərinin Olimpiya Festivalında növbəti medalını qazanıb. Apasport.az saytının məlumatına görə, millimizə 4-cü mükafatı da cüdoçumuz qazandırıb.

66 kq çəki dərəcəsində çıxış edən İsmayıl İbrahimov yarışı 3-cü pillədə bitirib. O, bürünc medal uğrunda döyüşdə hollandiyalı Lars Kampiusu məğlub edib.

Qeyd edək ki, cüdo yığmamızda İbrahimovdan öncə Şəfəq Həmidova (40 kq) qızıl, Kəramət Hüseynov (55 kq) gümüş və İbrahim Bayramlı (50 kq) bürünc medal qazanıb. Aktivində 4 medal olan Azərbaycan millisi qeyri-komanda hesabında 15-cidi.

### Azərbaycanlı idmançının güclü zərbəsi erməni zabiti çökdürdü



Gürcüstanın Batumi şəhərində keçirilən kung fu sanda üzrə Qara Dəniz Kuboku maraqlı anlara səhnə olub. 80 kq-da Azərbaycanı təmsil edən Babək Əliyev İran və Gürcü rəqiblərini məğlub edərək finala çıxıb. Finalda Babək erməni ordusunun zabiti Razmik Hopsepyanla qarşılaşıb. Görüşdə rəqibinə aman verməyən idmançımız ayaq zərbəsilə erməni zabiti nokauta salıb. ATV.az- a açıqlamasında Babək bildirib ki, qələbəsini bu yaxınlarda şəhid olan əsgər qardaşlarımıza həsr edir.

Xatırladaq ki, Babək məşhur məşqçi Ruslan Rzayevin yetirməsidir.

### Millimizdən böyük hesablı qələbə



Moldovanın paytaxtı Kişinyovda təşkil olunan 17 yaşadək qızlar arasında UEFA-nın İnkişaf turnirində 2-ci turun oyunları keçirilib. Apasport.az saytının məlumatına görə, Azərbaycan millisi Latviyanı sınağa çəkib. Komandamız bu qarşılaşmada böyükhesablı qələbə qazanıb - 3:0. Firəngiz Teymurovanın ilk yarıda dubla imza atdığı matçda son nöqtəni Rövşanə Sərdarlı qoyub. İlk turda futbolçularımız meydan sahiblərinə 1:3 hesabı ilə uduzmuşdu.

Yığmamız son turda Bolqarıstanı sınağa çəkib.

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 Moldova | 2 | 2 | 0 | 0 | 6-2 | 6 |
| 2 Azərbaycan | 2 | 1 | 0 | 1 | 4-3 | 3 |
| 3 Latviya | 2 | 1 | 0 | 1 | 2-3 | 3 |
| 4 Bolqarıstan | 2 | 0 | 0 | 2 | 1-5 | 0 |

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 597
Nüsxə 4700